**İNSAN HÜQUQLARI ÜZRƏ AVROPA MƏHKƏMƏSİ**

BİRİNCİ BÖLMƏ

**NƏCƏFLİ AZƏRBAYCANA QARŞI**

*(2594/07 nömrəli ərizə)*

**QƏRAR**

STRASBURQ

2 oktyabr 2012-ci il

*Bu qərar Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndində təsbit edilmiş qaydada qəti qüvvəyə minəcəkdir. Qərarda redaktə xarakterli düzəlişlər edilə bilər.*

**Nəcəfli Azərbaycana qarşı işi üzrə**
İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Birinci Bölmə)
*Sədr*, Nina Vajiç (*Nina Vajić*)
*hakimlər:*
Anatoli Kovler (*Anatoly Kovler*),
Xanlar Hacıyev (*Khanlar Hajiyev*),
Miryana Lazarova Traykovska (*Mirjana Lazarova Trajkovska*),
Culia Laffranq (*Julia Laffranque*),
Linos-Aleksandr Sisilianos (*Linos-Alexandre Sicilianos*),
Erik Mose (*Erik Møse*),
və *Bölmə katibi* Soren Nilsendən ibarət tərkibdə
2012-ci ilin 11 sentyabr tarixində qapalı müşavirə keçirərək

**M Ü Ə Y Y Ə N E T D İ:**

## PROSEDUR MƏSƏLƏLƏRİ

1.Bu iş Azərbaycan Respublikasının vətəndaşı cənab Ramiz Hüseyn oğlu Nəcəflinin ("ərizəçi") İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanın ("Konvensiya") 34-cü maddəsinə uyğun olaraq Azərbaycan Respublikasına qarşı 2006-cı il 12 dekabr tarixində təqdim etdiyi şikayət (2594/07 nömrəli) ilə başlanmışdır.

2.Ərizəçi Azərbaycanda fəaliyyət göstərən hüquqşünas cənab İ.Əliyev, Azərbaycan Hökuməti ("Hökumət") səlahiyyətli nümayəndəsi cənab Ç.Əsgərov tərəfindən təmsil olunmuşlar.

3.Ərizəçi xüsusilə nümayişin dağıdılması zamanı polis tərəfindən döyüldüyünü və yerli dövlət orqanlarının hadisəni səmərəli şəkildə araşdırmadığını iddia etmişdir.

4. 2008-ci il 7 yanvar tarixində ərizə Hökumətə göndərilmişdir. Həmçinin,ərizənin mümkünlüyü və mahiyyəti barədə eyni vaxtda qərar çıxarmaq qət edilmişdir (29-cu maddənin 1-ci bəndi).

## FAKTLAR

## I. İŞİN HALLARI

5. Ərizəçi 1967-ci ildə anadan olmuşdur və Bakı şəhərində yaşayır.

### A. Ərizəçi ilə pis rəftar olunduğu iddiası

6. Ərizəçi jurnalist və *Boz Qurd* adlı qəzetin baş redaktoru idi.

7. 2005-ci ilin 9 oktyabrında bir sıra müxalifət partiyaları Bakı şəhərində icazəsiz nümayiş keçirmişdir. Ərizəçi digər beş jurnalistlə birgə hadisələr barədə məlumat vermək üçün nümayişin keçirildiyi yerdə idi. Ərizəçi onun jurnalist kimi tanınmasına imkan verən mavi rəngli xüsusi gödəkcə geyinməmiş, lakin jurnalist döş nişanını taxmışdı.

8. Polis tərəfindən nümayiş dağıdılan zaman ərizəçi və onun həmkarları döyülmüş və müxtəlif xəsarətlər almışlar. Ərizəçinin bildirdiyinə görə o, polis əməkdaşlarına jurnalist olduğunu demiş və dayanmağı xahiş etmişdir. Ərizəçinin başına zərbələr endirilmiş və döyülmə nəticəsində o, huşunu itirmişdir.

9. Ərizəçi həmin günü xəstəxanaya aparılmışdır. 2005-ci il 26 oktyabr tarixində verilmiş tibbi arayışa görə ona qapalı kəllə-beyin travması, beyin sarsıntısı vətəpə nahiyəsinin yumşaq toxumalarının zədələnməsi diaqnozu qoyulmuşdur.

10. 2006-cı il 10 iyul tarixində ərizəçi 19 nömrəli Bakı şəhər poliklinikasından tibbi arayış almışdır. Arayışda göstərilirdi ki, ərizəçi qapalı kəllə-beyin travması və beyin sarsıntısı diaqnozu ilə xəstə kimi qeydiyyatdan keçmiş və onun vəziyyəti uzun müddətli müalicə tələb edir.

**B. Cinayət işi**

11.Döyülmüş altı jurnalist 2005-ci il 9 oktyabr tarixində cinayət işinin başlanması üçün birgə ərizə ilə müraciət etmişlər. 2005-ci ilin 9 noyabr tarixində Səbail rayon polis şöbəsi Cinayət Məcəlləsinin 132-ci (döymə) maddəsi ilə cinayət işi başlamış və işi Səbail rayon prokurorluğuna göndərmişdir.

12.2006-cı ilin 12 yanvar tarixində ərizəçi işin istintaqını aparan müstəntiqlə görüşmüşdür. Ərizəçi jurnalist kimi nümayişi müşahidə edən zaman bir qrup polis əməkdaşı tərəfindən döyüldüyünü bildirmişdir. Ərizəçi, həmçinin ona zərbə endirmiş polis işçilərini tanımasa da, polis bölməsinə rəhbərlik edən polis zabitini tanıdığını bildirmişdir. Ərizəçi Bakı şəhər Polis İdarəsinin Çevik Polis Alayının rəisinin (A.V.) şəklini təqdim etmişdir.Ərizəçinin hadisə barədə dedikləri, həmçinin müvafiq vaxtda hadisə yerində olmuş digər iki jurnalist E.M. və N.A. tərəfindən də təsdiq edilmişdir.

13. Hökumət bildirmişdir ki, 2006-cı il 28 yanvar tarixində müstəntiq ərizəçinin üzərində məhkəmə-tibb ekspertizasının aparılmasına göstəriş vermiş, lakin ərizəçi ekspertizaya gəlməmişdir. Bununla bağlı Hökumət Məhkəməyə hər hansı qərarın surətini təqdim etməmişdir. Ərizəçi bu qərar barədə müstəntiqin ona məlumat vermədiyini bildirmişdir.

14. 2006-cı ilin 2 fevralında işin istintaqını aparan müstəntiq Səbail rayon polis şöbəsindən ərizəçiyə zərbə vurmuş polis işçisini müəyyənləşdirməyi xahiş etmişdir. Müstəntiqin məktubuna 2006-cı il 25 fevral tarixli cavab məktubunda Səbail rayon polis şöbəsinin rəisi müvafiq polis əməkdaşının müəyyən edilməsinin mümkün olmadığını, lakin bu istiqamətdə tədbirlərin görülməsinin davam etdiriləcəyini və əldə edilmiş nəticə barədə müstəntiqə məlumat veriləcəyini qeyd etmişdir.

15. 2006-cı ilin 1 martında müstəntiq A.V.-ni dindirmişdir. A.V. ərizəçinin döyülməsində iştirak etdiyini inkar etmişdir. A.V. bildirmişdir ki, nə o, nə də onun tabeliyində olan polis əməkdaşları ərizəçiyə qarşı hər hansı qanunsuz hərəkətə yol verməmişlər.

16. 2006-cı ilin 9 martında Səbail rayon prokurorluğunun müstəntiqi döymə əməlini törətmiş şəxsin müəyyən edilməsinə qədər cinayət işinin dayandırılması barədə qərar qəbul etmişdir. Müstəntiq ərizəçinin döyülməsində iştirak etmələri iddia olunan polis əməkdaşlarının müəyyən edilmədiyi faktını əsas kimi götürmüşdür. A.V.-nin bu hadisədə iştirakı məsələsinə gəlincə, müstəntiq A.V.-nin ifadələrini əsas kimi götürərək qeyd etmişdir ki, o, ərizəçiyə qarşı heç bir qanunsuz hərəkətə yol verməmişdir.

17. 2006-cı ilin may ayına qədər ərizəçiyə cinayət işinin istintaqının gedişi barədə hər hansı məlumat verilməmişdir. 2006-cı ilin 9 mayında ərizəçi Səbail rayon prokurorluğu ilə əlaqə saxlayaraq cinayət işinin gedişi barədə məlumat almaq istəmişdir. Müstəntiq ona cinayət işi üzrə istintaqın 2006-cı ilin 9 mart tarixində dayandırıldığını bildirmiş, lakin ərizəçiyə istintaqın dayandırılması barədə qərarın surətini təqdim etməmişdir.

18. 2006-cı ilin 12 mayında ərizəçi Səbai rayon məhkəməsinə şikayətlə müraciət etmişdir. O, müstəntiqin istintaqın dayandırılması barədə qərarın surətini ona vermədiyindən, beləliklə də həmin qərardan lazımı qaydada şikayət verməsini qeyri-mümkün etməsindən şikayət etmişdir. O, həmçinin məhkəmədən bu qərarı ləğv edərək iş üzrə istintaqın davam etdirilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir. O, xüsusi təkidlə bildirmişdir ki, onu döymüş polis əməkdaşları A.V.-nin tabeliyi altında olmuş və A.V.-nin hadisə yerində çəkilmiş şəkli polisə təqdim edilmişdir.

19. 2006-cı il 26 mayda Səbail rayon məhkəməsi ərizəçinin şikayətini təmin etməmək barədə qərar qəbul etmişdir. Məhkəmə istintaqın dayandırılması haqqında qərarın qanuni olduğunu və 2006-cı ilin 9 mart

tarixində ərizəçiyə göndərildiyini bildirmişdir. Məhkəmənin qərarında A.V.-nin ərizəçinin döyülməsində iddia olunan roluna münasibət bildirilməmişdir. Belə görünür ki, məhkəmə baxışı zamanı heç bir şahid dindirilməmişdir.

20. 2006-cı ilin 1 iyununda ərizəçi bu qərardan apellyasiya şikayəti verərək əvvəlki şikayətlərini təkrar etmişdir. O xüsusilə bildirmişdir ki, istintaqın onu döymüş polis əməkdaşının müəyyənləşdirilməsinin mümkün olmaması səbəbindən dayandırılması düzgün deyildi və istintaq orqanları bu əməli törədənləri tanıyırlar. Bununla bağlı ərizəçi qeyd etmişdir ki, o və digər jurnalistlər müvafiq vaxtda hadisə yerində olan A.V.-nin fotoşəkilini xüsusi olaraq çəkmişlər.

21. 2006-cı ilin 13 iyununda Apellyasiya Məhkəməsi ərizəçinin şikayətini təmin etməmiş və Səbail rayon məhkəməsinin 2006-cı il 26 may tarixli qərarını qüvvəsində saxlamışdır.

### C. Mülki iş

22.2006-cı ilin 9 noyabrında ərizəçi Daxili İşlər Nazirliyinə qarşı mülki iddia qaldıraraq 2005-ci il 9 oktyabr tarixində döyülməsi ilə bağlı ona dəymiş maddi və mənəvi ziyanın ödənilməsini tələb etmişdir. O, Konvensiyanın 3-cü, 10-cu və 11-ci maddələrinin pozulduğunu bildirmişdir.

23. 2006-cı ilin 20 noyabrında Səbail rayon məhkəməsi ərizə formal tələblərə cavab vermədiyi üçün ona baxmaqdan imtina etmişdir. Məhkəmə qeyd etmişdir ki, ərizəçi xüsusilə xəsarətlərin səbəbinə dair məhkəmə-tibb ekspertizasının rəyini və ərizəçinin döyülməsinə görə polis əməkdaşının təqsirli hesab olunduğunu təsdiq edən hər hansı sənədin surətini təqdim etməmişdir. Məhkəmə, həmçinin qeyd etmişdir ki, ərizəçi onu döydüyünü iddia etdiyi şəxsləri müəyyən edə bilmədiyi üçün ümumi şəkildə Daxili İşlər Nazirliyini cavabdeh kimi göstərmişdir.

24. 2006-cı ilin 6 dekabr tarixində ərizəçi birinci instansiya məhkəməsinin ərizəyə baxılmasının qeyri-mümkünlüyü ilə bağlı qərarından apellyasiya şikayəti verərək əvvəlki şikayətlərini təkrar etmişdir.

25. 2007-ci ilin 26 yanvar tarixində Apellyasia Məhkəməsi Səbail rayon məhkəməsinin 2006-cı il 20 noyabr tarixli qərarını qüvvədə saxlamışdır.

26. 2007-ci il 14 iyunda Ali Məhkəmə aşağı məhkəmələrin qərarlarını qüvvədə saxlamışdır.

## II. MÜVAFİQ DAXİLİ QANUNVERİCİLİK

### A. Azərbaycan Respublikasının Konstitusiyası

27. Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsinin 3-cü hissəsində qeyd edilir:

> "Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. ...

### B. Polis haqqında 1999-cu il 28 oktyabr tarixli qanun

28.*İnter alia*, şəxsin təhlükəli hərəkətləri ilə özünə və ya ətrafındakılara zərər yetirə biləcəyi ehtimalı olduqda polis əməkdaşı həmin şəxsə qarşı xüsusi vasitələr tətbiq edə bilər (26-cı maddənin 2-ci hissəsi)."Xüsusi vasitələr" dedikdə dəyənəklər, əl-qolu bağlama vasitələri, xüsusi təyinatlı gözyaşardıcı qazlar, rezin güllələr, suatan vasitələrvə digər vasitələr başa düşülür (1-ci maddə). Fiziki qüvvənin, xüsusi vasitələrin və ya odlu silahın tam zəruri hallarda tətbiqi yaranmış təhlükəyə mütənasib olmalıdır. Polis əməkdaşı tərəfindən fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edildiyi hər bir halda müvafiq polis orqanında xidməti yoxlama aparılmalı və fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiqinin qanunauyğunluğu barədə müvafiq rəy verilməlidir (26-cı maddənin 6-cı və 7-ci hissələri).Fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın qanunsuz tətbiqinə yol verən polis əməkdaşı müvafiq qanunvericiliklə müəyyənləşdirilmiş məsuliyyət daşıyır (26-cı maddənin 9-cu hissəsi).

29. Fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın tətbiqi ilə bağlı vəzifələrini həyata keçirən polis əməkdaşı insana qarşı fiziki qüvvəni, xüsusi vasitələri və ya odlu silahı yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, bütün digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquqpozmanın ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq etməlidir (27-ci maddənin 1-ci hissəsinin 1-ci bəndi). Fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edilməsi nəticəsində

zərərçəkənlərə tibbi yardımın göstərilməsi təmin edilməlidir (27-ci maddənin 1-ci hissəsinin 5-ci bəndi). Fiziki qüvvə, xüsusi vasitələr və odlu silah tətbiq etdiyi hallar barəsində polis əməkdaşı dərhal xidmət etdiyi və ya odlu silahın tətbiq edildiyi ərazinin polis orqanına yazılı məlumat verməlidir (27-ci maddənin 1-ci hissəsinin 7-ci bəndi). Fiziki qüvvənin, xüsusi vasitələrin, odlu silahın tətbiq edilməsi barədə 24 saat ərzində müvafiq prokurora yazılı məlumat verməlidir (27-ci maddənin 1-ci hissəsinin 8-ci bəndi).

## HÜQUQİ MƏSƏLƏLƏR

## I. KONVENSİYANIN 3-cü MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTUSU

30.Ərizəçi şikayət edərək bildirmişdir ki, o, polis tərəfindən döyülmüş və yerli dövlət orqanları onun döyülməsində təqsirli olan polis əməkdaşlarının müəyyən edilərək məsuliyyətə cəlb edilmələri üçün səmərəli istintaq aparmamışdır. Konvensiyanın 3-cü maddəsində qeyd edilir:

> "Heç kəs işgəncəyə və ya qeyri-insani, yaxud alçaldıcı rəftara və ya cəzaya məruz qala bilməz."

### A. Ərizənin mümkünlüyü

31.Məhkəmə qeyd edir ki, bu şikayət Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinin a) yarımbəndinə əsasən açıq-aşkar əsassız deyil. O eyni zamanda bildirir ki, ona baxılması digər əsaslara görə də qeyri-mümkün hesab edilə bilməz. Buna görə də, şikayətə baxılması mümkün elan edilir.

### B. Ərizənin mahiyyəti

1. *Polis əməkdaşının ərizəçi ilə pis rəftar etməsi iddiası*

#### (a) Tərəflərin izahatları

32.Hökumət bildirmişdir ki, məsələ ilə bağlı məhkəmə qərarı olmadığı üçün ərizəçinin pis rəftara məruz qalıb-qalmadığını təsdiq etmək mümkün deyil. Hökumət bundan əlavə bildirmişdir ki, 2005-ci ilin 9 oktyabr tarixində keçirilmiş nümayiş icazəsiz olmuş və polisin qanunsuz nümayişi dağıtmaq üçün fiziki güc tətbiq etmək hüququ olmuşdur. Buna görə də, hazırkı işdə polis tərəfindən fiziki güc tətbiqinə pis rəftar kimi baxıla bilməz.

33. Ərizəçi qeyd etmişdir ki, o, A.V. tərəfindən rəhbərlik edilən bir qrup polis əməkdaşı tərəfindən döyülmüş və onlar heç bir əsas olmadan ona qarşı hədsiz fiziki güc tətbiq etmişlər. O, bununla bağlı sübut qismində 2005-ci il 26 oktyabr tarixli tibbi arayışa, iki jurnalist tərəfindən verilmiş şahid ifadələrinə və A.V.-nin hadisənin baş vermə yerində çəkilmiş şəklinə istinad etmişdir.

#### (b) Məhkəmənin qiymətləndirməsi

34.Məhkəmə təkrar edir ki, 3-cü maddə demokratik cəmiyyətin ən mühüm dəyərlərindən birini ehtiva edir. Hətta terror və mütəşəkkil cinayətkarlıqla mübarizə kimi ən çətin vəziyyətlərdə Konvensiya işgəncəni və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarı və ya cəzanı mütləq şəkildə qadağan edir. Konvensiyanın və onun 1 və 4 saylı Protokollarının maddi hüquq normalarının əksəriyyətindən fərqli olaraq 3-cü maddədə heç bir istisna hal nəzərdə tutmamışdır və xalqın həyatı üçün təhlükə yaradan fövqəladə vəziyyətlərdə belə 15-ci maddənin 2-ci bəndi 3-cü maddənin tələblərindən geri çəkilməyə icazə vermir (baxın,*"Selmuni Fransaya qarşı"* [Böyük Palata] (*Selmouni v. France* [GC], no. 25803/94, § 95, ECHR 1999-V); *"Assenov və digərləri Bolqarıstana qarşı"* (*Assenov and Others v. Bulgaria*, 28 October 1998, § 93, *Reports of Judgments and Decisions* 1998-VIII)).

35. Pis rəftar 3-cü maddənin tətbiqi dairəsinə düşmək üçün heç olmasa minimum sərtlik səviyyəsində olmalıdır. Bu minimum sərtlik səviyyəsinin qiymətləndirilməsi işin bütün hallarından, o cümlədən rəftarın müddəti, onun doğurduğu fiziki və psixi nəticələr, bəzi hallarda zərər çəkmiş şəxsin cinsi, yaşı və səhhətindən asılıdır (baxın,*"İrlandiya Birləşmiş Krallığa qarşı"* (*Ireland v. the United Kingdom,* 18 January 1978, § 162, Series A no. 25); *"Kudla Polşaya qarşı"* [Böyük Palata] (*Kudła v. Poland* [GC], no. 30210/96,

§ 91, ECHR 2000-XI); *"Pirs Yunanıstana qarşı"* (*Peers v. Greece*, no. 28524/95, § 67, ECHR 2001-III)).Məhkəmə,*inter alia*, qəsdən bir neçə saat ərzində fasiləsiz tətbiq edilmiş və bədənə real xəsarət vurulmasına və ya əhəmiyyətli dərəcədə fiziki və mənəvi iztirablara səbəb olmuş rəftarı "qeyri-insani" hesab etmişdir. Rəftar zərər çəkmiş şəxsdə qorxu, əzab və alçalma hissləri yaradaq onu təhqir edirsə və ya ləyaqətini alçaldırsa, Məhkəmə tərəfindən "alçaldıcı" hesab edilir (baxın, yuxarıda qeyd edilmiş *"Kudla"* işi, 92-ci bənd).

36. Sübutları qiymətləndirən zaman Məhkəmə "əsaslı şübhələr yaratmayan" sübut standartını qəbul edir. Belə sübut kifayət qədər inandırıcı, aydın və bir-birinə uyğun gələn məntiqi nəticələrin və ya faktla bağlı oxşar, təkzib edilməyənehtimalların mövcudluğundan irəli gələ bilər (digər qərarlarla yanaşı baxın,*"Avşar Türkiyəyə qarşı"* (*Avşar v. Turkey*, no. 25657/94, § 282, ECHR 2001-VII (extracts)).Məhkəmə rolunun tamamlayıcı xarakterə malik olduğuna həssas yanaşır və işin xüsusi hallarına görə faktın qiymətləndirilməsi ilə bağlı birinci instansiya məhkəməsinin rolunu icra etmək qaçılmaz olduğu təqdirdə, ehtiyatlı olmanın zəruriliyini anlayır (misal üçün baxın,*"MakKer Birləşmiş Krallığa qarşı (qərardad)"* (*McKerr v. the United Kingdom* (dec.), no. 28883/95, 4 April 2000)). Buna baxmayaraq, Konvensiyanın 3-cü maddəsinə əsasən iddialar irəli sürüldüyü zaman Məhkəmə müəyyən ölkədaxili proseslər və istintaq hərəkətləri artıq həyata keçirilmiş olsa da, məsələni xüsusilə hərtərəfli araşdırmalıdır (baxın,*"Muradova Azərbaycana qarşı"* (*Muradova v. Azerbaijan*, no. 22684/05, § 99, 2 April 2009) və yuxarıda qeyd edilmiş *"Avşar Türkiyəyə qarşı"* işi, 283-284-cü bəndlər).

37.Məhkəmə hesab edir ki, ərizəçi polis tərəfindən fiziki güc tətbiqinə məruz qaldığını təsdiqləyən kifayət qədər mötəbər sübutlar təqdim etmişdir. Xüsusilə, ərizəçinin təqdim etdiyi 2005-ci il 26 oktyabr tarixli tibbi arayışda onun 2005-ci ilin 9 oktyabrında xəstəxanaya qəbul edildiyi və ona qapalı kəllə-beyin travması, beyin sarsıntısı və təpə nahiyəsinin yumşaq toxumalarının zədələnməsi diaqnozu qoyulduğu göstərilmişdir. O, eyni zamanda döyüldükdən dərhal sonra çəkilmiş iki fotoşəklini də təqdim etmişdir. Ərizəçinin 2005-ci ilin 9 oktyabrında döyülməsi və ciddi xəsarətlər alması heç vaxt istintaq orqanları, xüsusilə istintaqın dayandırılması barədə 2006-cı il 9 mart tarixində qərar qəbul etmiş Səbail rayon prokurorluğutərəfindən şübhə altına alınmamışdır.Ərizəçiyə xəsarətin polis tərəfindən yetirilməsi iddiasına gəlincə, qeyd edilməlidir ki, o bu xəsarəti 2005-ci ilin 9 oktyabrında nümayişin polis tərəfindən zorla dağıdıldığı vaxt almışdır. Ərizəçi hadisə barədə dediklərini dəstəkləyən iki şahidin ifadəsini və A.V.-nin hadisə yerində olduğunu təsdiq edən şəkli təqdim etmişdir. Avropa Məhkəməsinə təqdim edilmiş sübutlar ən azından ərizəçinin nümayişin dağıdılması zamanı polis əməkdaşları tərəfindən dəyənəklə döyüldüyü ehtimalının yaranması üçün kifayət qədər inandırıcı vəməntiqlidir. Məhkəmənin fikrincə, nə Hökumət öz izahatlarında, nə də ki dövlət orqanları öz qərarlarında bu ehtimalı təkzib edə biləcək əsaslı dəlillər irəli sürmüşlər.

38. Buna görə də, Məhkəmə ərizəçiyə qarşı fiziki güc tətbiqinin həddən artıq sərt olub-olmadığını araşdıracaqdır. Bu baxımdan, Məhkəmə fiziki gücün tətbiq edildiyi şəraitə xüsusi əhəmiyyət verir (baxın,*"Güzel Şahin və digərləri Türkiyəyə qarşı"* (*Güzel Şahin and Others v. Turkey*, no. 68263/01, § 50, 21 December 2006) və *"Timtik Türkiyəyə qarşı"* (*Timtik v. Turkey*, no. 12503/06, §49, 9 November 2010)).Şəxs polis və ya digər dövlət nümayəndəsi ilə üz-üzə gələndə, həmin şəxsin öz davranışı ilə bağlı tətbiq edilməsi tam zəruri olmayan fiziki gücdən istifadə insan ləyaqətini alçaldır və prinsip etibarilə Konvensiyanın 3-cü maddəsində təsbit edilmiş hüququn pozulması hesab edilir (baxın,*"Kop Türkiyəyə qarşı"* (*Kop v. Turkey*, no. 12728/05, § 27, 20 October 2009) və yuxarıda qeyd edilmiş *"Timtik"* işi, 47-ci bənd).

39. Məhkəmə hesab edir ki, ərizəçiyə qarşı fiziki gücdən istifadənin məhz onun öz davranışı nəticəsində tam zəruri olduğu sübut edilməmişdir. Heç bir şübhə yoxdur ki, ərizəçi polisə qarşı zorakılığa yol verməmiş və ya onun üçün təhlükə yaratmamışdır. Fiziki güc tətbiqinə haqq qazandıran hər hansı başqa səbəblərin də olduğu sübut edilməmişdir. Buna görə də, Məhkəmə fiziki gücdən istifadənin qeyri-zəruri, həddən artıq sərt və qəbuledilməz olduğu nəticəsinə gəlməyə bilməz.

40. Məhkəmə qeyd edir ki, ərizəçiyə vurulmuş xəsarətlər onun ciddi fiziki ağrı və əziyyətə məruz qaldığını təsdiq edir. Ərizəçi müalicəsi uzun müddət tələb edən kəllə-beyin travması və beyin sarsıntısından əziyyət çəkmişdir. Pis rəftar və onun nəticələri ərizəçinin, həmçinin əhəmiyyətli dərəcədə psixi əzablar çəkməsinə səbəb olaraq onun ləyaqətini alçaltmışdır. Belə bir vəziyyətdə Məhkəmə hesab edir ki, şikayət edilmiş pis rəftar faktı kifayət qədər ciddi olmaqla minimum sərtlik səviyyəsinə malik olduğu üçün 3-cü maddənin əhatə dairəsinə düşür və qeyri-insani və alçaldıcı hesab edilir.

41. Beləliklə, Konvensiyanın 3-cü maddəsi maddi-hüquqi aspektdən pozulmuşdur.

2. *Səmərəli istintaqın aparılmadığı iddiası*

**(a) Tərəflərin izahatları**

42.Hökumət bildirmişdir ki, yerli dövlət orqanları ərizəçinin pis rəftara dair iddiaları ilə bağlı səmərəli istintaq aparmışlar. Xüsusilə, Hökumət qeyd etmişdir ki, ərizəçi 2005-ci il 9 noyabr tarixində şikayətlə müraciət etdikdən sonra yerli dövlət orqanları tərəfindən cinayət işi başlanmışdır. Müstəntiq ərizəçini, iki şahidi və A.V.-ni dindirmiş və ərizəçini döymüş şəxslərin müəyyən edilməsi üçün bütün müvafiq addımları atmışdır. Bundan əlavə, müstəntiq 2006-cı il 28 yanvarda məhkəmə-tibb ekspertizası təyin etmiş, lakin ərizəçi ekspertizada iştirak etməmişdir.

43. Ərizəçi bildirmişdir ki, yerli dövlət orqanları onun pis rəftara dair iddiaları ilə bağlı səmərəli istintaq aparmamışlar. O qeyd etmişdir ki, dövlət orqanları polis tərəfindən döyülməsi ilə bağlı təqdim etdiyi hər hansı sübuta məhəl qoymamışdır. Ərizəçi, həmçinin bildirmişdir ki, müstəntiqin məhkəmə-tibb ekspertizasının təyin edilməsinə dair 2006-cı il 28 yanvar tarixli qərarı barədə ona məlumat verilməmişdir.

44. Tərəflər, həmçinin istintaqın dayandırılması haqqında müstəntiqin 2006-cı il 9 mart tarixli qərarı barədə ərizəçiyə vaxtında məlumat verilib-verilmədiyi ilə bağlı fikir ayrılığına malikdirlər. Hökumət bu qərarın ərizəçi tərəfindən imzalanmış və qərarla razılaşmadığına dair qeydinin əks olunduğu surətini və müstəntiqin qərar barədə digər şəxslərlə yanaşı ərizəçiyə məlumat verdiyini əks etdirən 2006-cı il 9 mart tarixli məktubunun surətini təqdim etmişdir. Ərizəçi qeyd etmişdir ki, ona 2006-cı ilin may ayına qədər bu qərar barədə məlumat verilməmişdir və Hökumət tərəfindən təqdim edilmiş sənədlərdə qərarın surətinin ərizəçiyə verildiyi tarix və ya ərizəçiyə vaxtında məlumat verilməsinə dair qeyd yoxdur.

**(b) Məhkəmənin qiymətləndirməsi**

45.Şəxsin 3-cü maddənin tələblərinə zidd olaraq polis tərəfindən ağır nəticələrə səbəb olmuş pis rəftara məruz qaldığı ilə bağlı mübahisə edilməsi mümkün olan iddia irəli sürdüyü hallarda, həmin maddə Konvensiyanın 1-ci maddəsinə əsasən dövlətlərin "yurisdiksiyası altında olan bütün şəxslərin Konvensiyada təsbit edilmiş hüquq və azadlıqlardan istifadəsini təmin etmək" kimi ümumi öhdəliyi ilə birgə dolayı yolla səmərəli rəsmi istintaqın aparılmasını tələb edir. İstintaq təqsirli şəxslərin müəyyən edilərək cəzalandırılmasını təmin etməli idi.Əgər belə olmasa, işgəncələr və qeyri-insani və alçaldıcı rəftar və cəza ilə bağlı müəyyən edilmiş ümumi hüquqi qadağa böyük əhəmiyyət kəsb etsə də, praktikada səmərəsiz olar və bəzi hallarda dövlət nümayəndələrinin nəzarəti altında olan şəxslərin hüquqlarını pozaraq cəzasız qalmaları mümkün olardı (baxın, yuxarıda qeyd edilmiş *"Assenov və digərləri"* işi, 102-ci bənd; və *"Labita İtaliyaya qarşı"* [Böyük Palata] (*Labita v. Italy* [GC], no. 26772/95, § 131, ECHR 2000-IV)).

46. Konvensiyanın 2-ci və 3-cü maddələri ilə aparılması tələb olunan istintaqın səmərəli hesab edilməsi üçün istintaqı həyata keçirən və onun həyata keçirilməsinə görə məsul olan şəxslər istər qanuna görə, istərsə də təcrübədə müstəqil və qərəzsiz olmalıdırlar. Bu, yalnız hadisədə iştirak etmiş şəxslər ilə iyerarxik və ya institusional bağlılığın olmamasını deyil, eyni zamanda praktiki mənada müstəqilliyin mövcud olmasını nəzərdə tutur (baxın,*"Boisenko Moldovaya qarşı"* (*Boicenco v. Moldova*, no. 41088/05, § 66, 11 July 2006); *"Kolevi Bolqarıstana qarşı"* (*Kolevi v. Bulgaria*, no. 1108/02, § 193, 5 November 2009); *"Oleksi Mixayloviç Zaxarkin Ukraynaya qarşı"* (*Oleksiy Mykhaylovych Zakharkin v. Ukraine*, no. 1727/04, § 66, 24 June 2010)).

47. Bundan əlavə, pis rəftarla bağlı ciddi iddiaların istintaqı hərtərəfli aparılmalıdır. Bu o deməkdir ki, dövlət orqanları həmişə nəyin baş verdiyini müəyyənləşdirmək üçün ciddi səylər göstərməli və istintaqa xitam vermək üçün və ya qərarlarının əsası kimi tələsik, yaxud əsassız nəticələrə əsaslanmamalıdırlar (baxın, yuxarıda qeyd edilmiş *"Assenov və digərləri"*, 103-cü bənd). Onlar hadisə ilə bağlı sübutların toplanması, o cümlədən,*inter alia,* hadisəni gözləri ilə görmüş şahidlərin ifadələrinin və məhkəmə-tibb ekspertizasının rəyinin əldə edilməsi üçün mümkün olan bütün ağlabatan addımları atmalıdırlar (baxın,*"Tanrıkulu Türkiyəyə qarşı"* [Böyük Palata] (*Tanrıkulu v. Turkey* [GC], no. 23763/94, ECHR 1999-IV, § 104 et seq.); və *"Gül Türkiyəyə qarşı"* (*Gül v. Turkey,* no. 22676/93, § 89, 14 December 2000)).İstintaqın xəsarətin səbəbləri və ya xəsarəti yetirməyə görə təqsirli olan şəxsləri müəyyən etməyə imkan verməyən istənilən qüsura malik olması onun standartlara uyğun olmadığını təsbit etmək riski yaradır.

48. Pis rəftar iddiaları ilə bağlı səmərəli vasitə anlayışı, həmçinin şikayətçinin istintaq prosesində səmərəli şəkildə iştirak etməsini də nəzərdə tutur (baxın, yuxarıda qeyd edilmiş *"Assenov və digərləri"* işi, 117-ci bənd).İstintaqın gedişinə görə cavabdehliyin təmin edilməsi, dövlət orqanlarının qanunun aliliyinə sadiq olduqlarına ictimaiyyətin inamının təmin edilməsi və qanunsuz əməlləri törətmiş şəxslərlə gizli sövdələşmələrə getdikləri və ya belə əməllərin törədilməsinə göz yumduqları görüntülərinin yaranmasının qarşısının alınması üçün istintaq üzərində ictimai nəzarət mexanizmi olmalıdır (baxın, yuxarıda qeyd edilmiş *"Kolevi"* işi, 194-cü bənd).

49. Məhkəmə qeyd edir ki, ərizəçi pis rəftarla bağlı müraciət etdikdən sonra 2005-ci ilin 9 noyabr tarixində Səbail rayon polis şöbəsi Cinayət Məcəlləsinin 132-ci maddəsi (döymə) əsasında cinayət işi başlamışdır. 2005-ci il 22 dekabr tarixində cinayət işi Cinayət Məcəlləsinin 163-cü maddəsinə (jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma) tövsif edilmiş vəistintaqın aparılması məqsədilə Səbail rayon prokurorluğuna verilmişdir. Lakin ərizəçinin şikayətinin araşdırılması üçün kifayət qədər səy göstərilməmişdir. Belə ki, ərizəçi hadisənin baş verməsindən yalnız üç aydan çox müddət keçdikdən sonra dindirilmiş və beləliklə də, deməli 2006-cı ilin 12 yanvar tarixinə qədər heç bir prosessual addım atılmamışdır.

50. Eyni şəkildə, Hökumətin iddia etdiyi kimi müstəntiqin 2006-cı ilin 28 yanvar tarixində məhkəmə-tibb ekspertizasının təyin edilməsi barədə qərar qəbul etdiyi güman edilərsə belə, bu qərar gec, cinayət işinin başlanmasından iki ay on yeddi gün, hadisənin baş verməsindən üç ay on yeddi gün sonra qəbul edilmişdir. Bununla əlaqədar Məhkəmə, həmçinin qeyd edir ki, hər bir halda Hökumət nə müstəntiqin məhkəmə-tibb ekspertizasının təyin edilməsi barədə qərarının surətini, nə də hətta bu qərarın mövcud olduğu güman edilsə belə, ərizəçiyə müstəntiqin qərarı barədə həqiqətən də məlumat verildiyini təsdiq edən hər hansı sənəd təqdim etmişdir.

51. Bununla bağlı Məhkəmə işin materiallarını və tərəflərin izahatlarını nəzərdən keçirərək ərizəçinin işin istintaqının bütün mərhələlərində səmərəli şəkildə iştirakının təmin edilməsinə və prosessual tədbirlər barədə ona vaxtında məlumat verilməsinə ciddi şübhələrin olduğunu qeyd edir.

52. Məhkəmə yuxarıdakıları qeyd edərək hazırkı iş üzrə aparılmış istintaqın ən problemli hesab etdiyi aspektini araşdırmağa başlayır.Məhkəmə dəfələrlə vurğulamışdır ki, 2-ci və 3-cü maddədə nəzərdə tutulmuş prosessual öhdəlik istintaqın istər qanuna görə, istərsə də təcrübədə müstəqil və qərəzsiz olmasını tələb edir (yuxarıda 46-cı bəndə baxın). Məhkəmə qeyd edir ki, formal olaraq müstəqil istintaq orqanı olan və hazırkı işin istintaqını aparan Səbail rayon prokurorluğu Səbail rayon polis şöbəsindən ərizəçi ilə pis rəftar etdikləri iddia olunan şəxsləri müəyyənləşdirmək üçün araşdırma aparmağı xahiş etmişdir.Bununla da istintaq orqanı istintaqın əsas və başlıca hissəsini həyata keçirmək, yəni iddia olunan pis rəftarı törədənləri müəyyənləşdirilmək səlahiyyətini əməkdaşlarının bu əməli törətmələri iddia edilən orqana vermişdir. Bu baxımdan Məhkəmə hesab edir ki, əməli törətmələri şübhə edilən şəxslərin Bakı şəhər Polis İdarəsinin Çevik Polis Alayının əməkdaşları olduğu halda işin istintaqının başqa bir polis şöbəsinə həvalə edilməsi mühüm əhəmiyyət kəsb etmir. Mühüm olan odur ki, dövlət orqanı və onun əməkdaşlarının məsuliyyətə cəlb edilməsi ilə nəticələnə biləcək bu işin istintaqı həmin əməkdaşların həmkarları olan eyni dövlət orqanının işçiləri tərəfindən aparılmışdır.Məhkəmənin mövqeyinə görə hazırkı işdə polisin öz əməkdaşları tərəfindən törədilməsi iddia olunan cinayət əməli ilə bağlı apardığı istintaqmüstəqil hesab edilə bilməz (müqayisə üçün baxın,*mutatis mutandis, "Ramsahai və digərləri Niderlanda qarşı"* [Böyük Palata] (*Ramsahai and Others v. the Netherlands* [GC], no. 52391/99, §295-96, ECHR 2007-II); *"Aktaş Türkiyəyə qarşı"* (*Aktaş v. Turkey,* no. 24351/94, § 301, ECHR 2003-V (extracts)) və yuxarıda qeyd edilmiş *"MakKer"* işi, 128-ci bənd).

53. Səbail rayon polis şöbəsinin araşdırması heç bir nəticə verməmiş və o, sözü gedən polis əməkdaşlarını müəyyənləşdirə "bilməmişdir". Bununla bağlı Məhkəmə qeyd edir ki, bu işin materiallarında polisin müstəntiqləri tərəfindən real addımların atıldığını təsdiq edən hər hansı sənəd yoxdur.

54. Səbail rayon prokurorluğu Səbail rayon polis şöbəsinin "heç bir nəticənin" olmadığına dair məlumatını əsas kimi götürmüş və heç bir tədbir görmədən sadəcə olaraq cinayət işinin istintaqını dayandırmışdır.Məhkəmənin mövqeyinə görə istintaqı aparan orqan (Səbail rayon prokurorluğu) təqsirli şəxslərin müəyyənləşdirilməsi məqsədilə tam müstəqil, nəzərə çarpan və səmərəli istintaq hərəkətləri aparmaq səlahiyyətinə malik idi və bunu edə də bilərdi. Misal üçün, o, nümayişin dağıdılmasında iştirak etmiş Çevik Polis Alayının üzvlərinin siyahısını əldə edə, hadisədə iştirak etmiş bütün polis əməkdaşlarını dindirə, digər şahidləri (nümayişdə iştirak edənlər, hadisə vaxtı zərərçəkmişin yanında olanlar və digərlərini) müəyyənləşdirə və dindirə, zəruri hallarda üzləşdirmə həyata keçirə, hadisələrin xronoloji ardıcıllığını

qurmağa səy göstərə və sair hərəkətləri edə bilərdi. Lakin müstəntiq qeyd edilən bu hərəkətlərin heç birini müstəqil surətdə etməmişdir. Eyni zamanda istintaq orqanı, yerli məhkəmələr və Hökumət bu hərəkətlərin hansı səbəbdən edilmədiyi ilə bağlı həqiqətə uyğun bir izah verməmişdir.

55. Ərizəçi ona vurulmuş ziyanın mülki qaydada ödənilməsinə nail olmaq imkanından da məhrum edilmişdi, belə ki, mülki məhkəmələr onun iddia ərizəsini qəbul etməkdən imtina etmiş və bunu onun cavabdeh qismində konkret polis əməkdaşlarını göstərə bilməməyi ilə izah etmişlər. Avropa Məhkəməsi qeyd edir ki, təcrübədə bu, ərizəçi üçün aşılması mümkün olmayan mane demək idi, belə ki, həmin polis əməkdaşlarının müəyyənləşdirilməsi hazırkı işdə səmərəsiz fəaliyyət göstərən və müstəqilliyə malik olmayan cinayət işinin istintaqını aparan orqanların vəzifəsi idi.

56.Qeyd edilənlər Məhkəmə tərəfindən ərizəçinin pis rəftara dair iddiası üzrə istintaqın yuxarıda göstərilmiş səbəblərə görə Konvensiyanın 3-cü maddəsinin tələblərinə cavab vermədiyi qənaətinə gəlinməsi üçün kifayətdir. Beləliklə, bu işdə Konvensiyanın 3-cü maddəsi prosessual-hüquqi aspektdən pozulmuşdur.

## II. KONVENSİYANIN 10-cu MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTUSU

57.Konvensiyanın 10-cu və 11-ci maddələrini əsas götürən ərizəçi şikayət edərək bildirmişdir ki, polis ona qarşı pis rəftar etməklə onun jurnalist kimi peşə vəzifələrinin icrasına maneçilik törətmək məqsədi daşımış və onun dinc toplaşmaq azadlığı da pozulmuşdur.

58. Məhkəmə qeyd edir ki, ərizəçinin izahatlarından göründüyü kimi o, qanunsuz nümayişin iştirakçısı olmamış, nümayiş keçirilən vaxtı orada olaraq jurnalist kimi fəaliyyət göstərmişdir. Belə olan vəziyyətdə Məhkəmə hesab edir ki, şikayətin yalnız 10-cu maddə ilə bağlı hissəsi araşdırılmalıdır, belə ki, hazırkı işin halları üçün bu maddə *lex specialis* xarakteri daşıyır. Konvensiyanın 10-cu maddəsində qeyd edilir:

> “1. Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur.
>
> 2. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın qorunması, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısının alınması və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyinin təmin edilməsi məqsədilə qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər”.

### A. Ərizənin mümkünlüyü

59.Hökumət bildirmişdir ki, ərizəçi dövlətdaxili hüquq müdafiə vasitələrini tükəndirməmişdir. Ərizəçinin mülki iddiası yerli məhkəmələr tərəfindən iddianın təqdim edilməsi ilə bağlı prosessual tələblərin pozulduğuna görə qəbul edilməmişdir. Hökumət bildirmişdir ki, ərizəçi yerli məhkəmələrin onun mülki iddiası ilə bağlı təsbit etdiyi prosessual qüsuru aradan qaldıraraq yenidən məhkəməyə müraciət edə bilərdi. Lakin o, bunu etməmişdir.

60. Ərizəçi mülki iddiasının qanunun tələblərinə uyğun şəkildə təqdim edildiyini, cavabdeh qismində düzgün olaraq Daxili İşlər Nazirliyinin göstərildiyini və iddia ərizəsinin tələb olunan sayda surətini, eyni zamanda sərəncamında olan digər müvafiq sənədləri əlavə etdiyini bildirmişdir.

61. Məhkəmə təkrar edir ki, Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndində təsbit edilmiş dövlətdaxili hüquq müdafiə vasitələrinin tükəndirilməsi qaydası ərizəçilərdən ilk növbədə pozulmasını iddia etdikləri hüquqlarının bərpa edilməsinə imkan verən daxili hüquq sisteminin mümkün və qənaətbəxş vasitələrindən istifadə etmələrini tələb edir. Bu vasitələrin mövcudluğu istər nəzəri, istərsə də praktiki baxımdan kifayət qədər dəqiq olmalıdır. Əks halda, onlar istifadəsi mümkün və səmərəli olma tələblərinə cavab vermir. 35-ci maddənin 1-ci bəndi, həmçinin tələb edir ki, şikayətlər Avropa Məhkəməsinə təqdim edilməzdən qabaq ən azından mahiyyəti üzrə və ölkə qanunvericiliyində təsbit edilmiş formal tələblərə uyğun şəkildə müvafiq yerli orqanlar qarşısında qaldırılmalıdır. Bununla yanaşı, qeyri-adekvat və ya qeyri-səmərəli vasitələrdən istifadə edilməsi tələb olunmur (baxın,*“Akdivar və digərləri Türkiyəyə qarşı”* (*Akdivar and Others v. Turkey,* 16 September 1996, §§ 65-67, *Reports of Judgments and Decisions* 1996-IV)).

62. Məhkəmə qeyd edir ki, ərizəçi mülki iddia qaldıraraq,*inter alia,* Konvensiyanın 10-cu maddəsində təsbit edilmiş hüquqlarının pozulmasından şikayət etmişdir (baxın, yuxarıda 22-ci bənd və *a contrario, "Rizvanov Azərbaycana qarşı"* (*Rizvanov v. Azerbaijan*, no. 31805/06, § 73, 17 April 2012)).Bu iddia ərizəsi ərizəçinin məhkəmə-tibb ekspertizasının rəyini təqdim etməməsi və cavabdeh qismində konkret şəxsləri göstərməməsi kimi bir sıra formal səbəblərə görə qəbul edilməmişdir.Lakin Məhkəmə təkrar edir ki, hazırkı işin hallarında məhkəmə-tibb ekspertizasını və ərizəçinin döyülməsinə görə təqsirli olan polis əməkdaşlarının müəyyənləşdirilməsini təmin etməli olan cinayət işi üzrə istintaqın səmərəsizliyi nəzərə alınarsa, ərizəçinin bu tələblərə əməl etməsi praktiki cəhətdən mümkünsüz idi.Belə olduğu halda, yerli məhkəmələr tərəfindən əsas kimi götürülən tələblər mahiyyət etibarilə ərizəçinin iddiasının mahiyyəti üzrə mülki icraat qaydasında araşdırılması qarşısında aşılması mümkün olmayan maneə yaratmışdı. Belə vəziyyətdə Məhkəmə hesab edir ki, ərizəçi dövlətdaxili hüquq müdafiə vasitələrinin tükəndirilməsi üçün ondan gözlənilməsi mümkün olan hər şeyi etmişdir.

63. Bu səbəblərə görə Məhkəmə Hökumətin etirazını qəbul etmir. O eyni zamanda qeyd edir ki, bu şikayət Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinin a) yarımbəndinə əsasən açıq-aşkar əsassız deyil və ona baxılması digər əsaslara görə də qeyri-mümkün hesab edilə bilməz. Buna görə də, şikayətə baxılması mümkün elan edilir.

**B. Ərizənin mahiyyəti**

64. Hökumət ərizəçinin nümayişdə iştirak etmədiyini, onu "müşahidə" etdiyini bildirmişdir. O qeyd etmişdir ki, nümayişin keçirildiyi vaxt ərizəçi onun hüquq-mühafizə orqanları tərəfindən nümayişin digər iştirakçılarından fərqləndirilməsinə imkan verə biləcək xüsusi mavi rəngli gödəkcə geyinməmişdir. Hökumət eyni zamanda qeyd etmişdir ki, nümayiş qanunsuz olmuş və polis nümayişi dağıtmaq və polis əməkdaşlarının qanuni tələblərinə məhəl qoymayan şəxsləri tutmaq məqsədilə müvafiq fiziki güc tətbiq etmək hüququna malik olmuşdur. Hökumət bildirmişdir ki, buna görə də ərizəçinin iddia edilən döyülməsi faktı güman ki, polis əməkdaşlarının mavi rəngli gödəkcənin olmadığı üçün onu fiziki güc tətbiq etmək hüququna malik olduqları nümayiş iştirakçılarından fərqləndirə bilməmələri nəticəsində baş vermişdir. Polisin ərizəçinin jurnalist kimi peşə vəzifələrinin yerinə yetirilməsinə müdaxilə etmək və ya onun nümayişlə bağlı məlumat verməsinə maneçilik törətmək niyyəti olmamışdır.

65. Ərizəçi bildirmişdir ki, mavi rəngli gödəkcə geyinməsə də, onun jurnalist kimi fərqləndirilməsinə imkan verən döş nişanı taxmışdır. O, bu faktın şahidlər tərəfindən təsdiq olunduğunu qeyd etmişdir. Bundan əlavə, polis tərəfindən döyülən zaman dəfələrlə onlara jurnalist olduğunu bildirmişdir. Nəhayət, ərizəçi qeyd etmişdir ki, Hökumətin izahatlarının əksinə olaraq nümayişdə polis tərəfindən fiziki güc tətbiq edilməsi hər bir halda qanunsuz və əsassız olmuşdur.

66. Məhkəmə qanunun aliliyinin mövcud olduğu demokratik dövlətdə mətbuatın olduqca mühüm rol oynadığını dəfələrlə vurğulamışdır (baxın,*"Kastells İspaniyaya qarşı"* (*Castells v. Spain,* 23 April 1992, § 43, Series A no. 236); *"Torqeir Torqeirson İslandiyaya qarşı"* (*Thorgeir Thorgeirson v. Iceland,* 25 June 1992, § 63, Series A no. 239); *"Quduin Birləşmiş Krallığa qarşı"* (*Goodwin v. the United Kingdom,* 27 March 1996, § 39, *Reports*1996-II); *"Cersild Danimarkaya qarşı"* (*Jersild v. Denmark,* 23 September 1994, § 31, Series A no. 298) və *"Fətullayev Azərbaycana qarşı"* (*Fatullayev v. Azerbaijan,* no. 40984/07, § 88, 22 April 2010)).Mətbuatın vəzifəsi ictimai maraq doğuran məsələlərlə bağlı məlumat və fikirləri yaymaqdır. Belə məlumatı və fikirləri yaymaq vəzifəsi ilə yanaşı, ictimaiyyətin bu məlumat və fikirləri almaq hüququ da vardır. Bu, təbii olaraq hazırkı işdə olduğu kimi istənilən demokratik cəmiyyətin inkişafı üçün əhəmiyyətli olan müxalifətin toplantıları və nümayişləri barədə məlumat verməni də ehtiva edir. Bu belə olmasaydı, mətbuat "ictimai nəzarətçi" kimi mühüm əhəmiyyətə malik olan rolunu oynaya bilməzdi (digər qərarlarla yanaşı baxın,*"Observer və Guardian Birləşmiş Krallığa qarşı"* (*Observer and Guardianv. the United Kingdom,* 26 November 1991, § 59, Series A no. 216) və *"The Sunday Times Birləşmiş Krallığa qarşı"* (*The Sunday Times v. the United Kingdom (no. 2),* 26 November 1991, § 50, Series A no. 217)).

67. Ərizəçinin nümayiş barədə məlumat vermək üçün hadisə yerində olduğu mübahisə doğurmur. Başqa sözlə, o, burada jurnalist kimi peşə fəaliyyətini həyata keçirirdi. Yuxarıda təsbit edildiyi kimi ona qarşı fiziki güc tətbiq edilməsini zəruri edən formada davranmasa da, Konvensiyanın 3-cü maddəsinin tələblərinə zidd olaraq fiziki güc tətbiqinə məruz qalmışdır. Ərizəçi xüsusi mavi rəngli gödəkcə geyinməsə də, yaxasına jurnalist döş nişanı taxmışdır və həmçinin, jurnalist olduğunu polis əməkdaşlarına xüsusilə söyləmişdir.

Beləliklə, Məhkəmə polis əməkdaşlarının ərizəçinin jurnalist olduğunu müəyyən edə bilmədikləri ilə bağlı Hökumətin arqumentini qəbul edə bilməz.

68. Məhkəmə qeyd edir ki, dövlət orqanlarının jurnalistlərin peşə fəaliyyətlərini həyata keçirmələrinə maneçilik törədilməsinə yönələn tədbirləri 10-cu maddə ilə bağlı məsələlərin qalxmasına səbəb ola bilər (baxın,*mutatis mutandis*, *"Qsell İsveçrəyə qarşı"* (*Gsell v. Switzerland*, no. 12675/05, § 49 et seq., 8 October 2009)). Hazırkı işə gəlincə Məhkəmə qeyd edir ki, jurnalistlər peşə fəaliyyətlərini həyata keçirən zaman dövlət orqanları tərəfindən onlara qarşı pis rəftar olunması onların məlumat almaq və yaymaq hüququnu həyata keçirmələrinə ciddi şəkildə mane olur. Bu baxımdan Məhkəmə qeyd edir ki, Hökumət əslində jurnalistin fəaliyyətinə müdaxilə etmək niyyətinin olmadığını bildirmişdir. Lakin hazırkı işdə belə niyyətin olub-olmadığından asılı olmayaraq əsas məsələ odur ki, öz peşə fəaliyyətini həyata keçirən və hadisəni müşahidə edən jurnalist özünü təqdim etmək üçün açıq səylər göstərməsinə baxmayaraq, Konvensiyanın 3-cü maddəsinə əsasən pis rəftar hesab edilən zəruri olmayan və həddən artıq sərt fiziki güc tətbiqinə məruz qalmışdır. Beləliklə, Məhkəmə hesab edir ki, ərizəçinin Konvensiyanın 10-cu maddəsində nəzərdə tutulmuş hüququna müdaxilə edilmişdir.

69. Bundan başqa, Məhkəmə müdaxilənin 10-cu maddənin 2-ci bəndinə görə əsaslı olmadığını müəyyən etmişdir. Hökumət bu müdaxilənin qanuni olması və ya qanuni məqsədə xidmət etməsini təsdiq edə biləcək mötəbər sübutlar təqdim etməmişdir. Hər bir halda aydındır ki, hazırkı işdə də mövcud olan belə müdaxilə "demokratik cəmiyyətdə zəruri" hesab edilə bilməz.

70. Buna görə də Məhkəmə hesab edir ki, hazırkı işdə Konvensiyanın 10-cu maddəsi pozulmuşdur.

## III. KONVENSİYANIN 6-cı MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTUSU

71.Ərizəçi şikayət edərək bildirmişdir ki, yerli məhkəmələr mülki qaydada təqdim etdiyi iddia ərizəsini qəbul etməkdən əsassız olaraq imtina etmiş və bununla da, onun məhkəməyə müraciət etmək hüququ pozulmuşdur.

72. Konvensiyanın 6-cı maddəsinin müvafiq hissəsində qeyd edilir:

> "Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən...işinin ...məhkəmə tərəfindən...ədalətli araşdırılması hüququna malikdir".

73. 3-cü maddənin prosessual-hüquqi aspektinin pozuntusunun müəyyən edildiyini (və xüsusilə yuxarıda 55-ci maddədə təsbit edilmiş nəticələrə gəlindiyini) nəzərə alaraq və hazırkı şikayətin əsas etibarilə eyni məsələlərlə bağlı olduğunu qeyd edərək Məhkəmə hesab edir ki, bu işdə Konvensiyanın 6-cı maddəsinin pozulub-pozulmadığı məsələsinə baxılması zəruri deyil. Buna görə də, Məhkəmə Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinin a) yarımbəndi və 4-cü bəndinə uyğun olaraq ərizəni bu hissədə təmin etmir.

## IV. KONVENSİYANIN 41-ci MADDƏSİNİN TƏTBİQİ

74. Konvensiyanın 41-ci maddəsində bildirilir:

> "Əgər Məhkəmə Konvensiyanın və ona əlavə Protokolların pozulduğunu müəyyən edərsə və Yüksək Razılığa Gələn Tərəfin daxili hüququ kompensasiyanın yalnız qismən ödənilməsini mümkün hesab edirsə, zəruri olduğu təqdirdə zərərçəkmiş tərəfə ədalətli kompensasiyanın ödənilməsi barədə qərar çıxarır".

### A. Ziyan

#### *1. Maddi ziyan*

75. Ərizəçi tibbi müalicəsi ilə bağlı çəkdiyi xərclərə görə 800 avro, itirilmiş qazanca görə 16500 avro məbləğində vəsaitin kompensasiya kimi ödənilməsini tələb etmişdir. O eyni zamanda xaricdə aldığı müalicə ilə bağlı da ona 10000 avro vəsaitin ödənilməsini tələb etmişdir.

76. Hökumət tələbə etiraz edərək ərizəçinin iddialarını əsaslandıra bilmədiyini qeyd etmişdir.

77. Məhkəmə qeyd edir ki, Avropa Məhkəməsinin Prosedur Qaydalarının 60-cı Qaydasına uyğun olaraq ədalətli kompensasiya ilə bağlı istənilən tələb konkretləşdirilməli və yazılı şəkildə təqdim edilməlidir. Tələbi təsdiq edən bütün sənədlər və qəbzlər əlavə olunmalıdır. Əks halda Məhkəmə tələbi tam və ya qismən rədd edə bilər.

78. Məhkəmə qeyd edir ki, hazırkı işdə hətta vurulması iddia olunan ziyanla təsbit edilmiş pozuntular arasında səbəbiyyət əlaqəsinin olduğu güman edilərsə belə, ərizəçi tələbini əsaslandırmaq üçün heç bir sənəd təqdim etməmişdir. Xüsusən o, tibbi müalicəsinə sərf etdiyi xərcləri təsdiq edən hər hansı qəbz, resept və ya başqa sənəd, yaxud gəlirini təsdiq edən əmək müqaviləsi və ya digər sənədləri təqdim edə bilməmişdir.

79. Yuxarıda göstərilən səbəblərə görə, Məhkəmə ərizəçinin maddi ziyanla bağlı tələblərini rədd edir.

*2. Mənəvi ziyan*

80. Ərizəçi ona dəymiş mənəvi ziyana görə 10000 avro məbləğində vəsaitin kompensasiya kimi ödənilməsini tələb etmişdir.

81. Hökumət tələb olunan məbləğin əsassız və həddən artıq çox olduğunu bildirmişdir.

82. Məhkəmə hesab edir ki, ərizəçi mənəvi ziyana məruz qalmışdır və bu ziyan yalnız pozuntunun təsbit edilməsi ilə kompensasiya edilə bilməz. Buna görə də, ərizəçiyə vurulmuş mənəvi ziyana görə kompensasiya ödənilməlidir. Məhkəmə Konvensiyanın 41-ci maddəsinin tələblərinə uyğun olaraq ədalətli qiymətləndirmə apararaq ərizəçiyə,məbləğdən ödənilməli olan vergilər də daxil olmaqla, 10000 avro məbləğində kompensasiyanın verilməsini qət edir.

**B. Məhkəmə xərcləri**

83.Ərizəçi cinayət işinə yerli məhkəmələrdə baxılması ilə bağlı 1000 avro, mülki işi ilə bağlı isə 1600 avro məbləğində xərc çəkdiyini iddia etmişdir. O, eyni zamanda işə Avropa Məhkəməsində baxılması ilə əlaqədar çəkdiyi məhkəmə xərclərinə görə 2700 avro məbləğində vəsaitin ödənilməsini tələb etmişdir. Tələbini əsaslandırmaq üçün o, ölkə məhkəmələri və Avropa Məhkəməsində ona göstərilmiş hüquqi xidmətlərlə bağlı bağlanmış bir neçə kontraktı təqdim etmişdir.Kontraktlara əsasən xidmətlərə görə vəsait Avropa Məhkəməsinin ərizəçinin hüquqlarının pozulduğunu təsbit etməsi halında ödənilməli idi. Ərizəçi, həmçinin tərcümə xərclərinə görə 1750 avro, poçt xərclərinə görə isə 200 avro məbləğində vəsaitin ödənilməsini tələb etmişdir.

84. Hökumət tələb olunan vəsaitin əsassız və həddindən artıq çox olduğunu bildirmişdir. Xüsusilə, Hökumət ərizəçinin tələblərini sübut etmək üçün zəruri olan bütün sənədləri təqdim etmədiyini və tələb olunan məbləğ hələ də ödənilmədiyi üçün məhkəmə xərclərinin əslində çəkilmədiyini bildirmişdir.

85. Məhkəmənin presedent hüququna görə ərizəçinin çəkdiyi xərc və məsrəflər yalnız o zaman ona ödənilir ki, bu xərc və məsrəflərin həqiqətən də və zəruri olaraq çəkildiyi müəyyən edilsin və məbləği ağlabatan olsun. Məhkəmə işin materiallarında olan sənədləri və yuxarıda qeyd edilən meyarı nəzərə alaraq bütün bəndlər üzrə ərizəçiyə 3000 avro məbləğində kompensasiyanın ödənilməsini ağlabatan hesab edir.

**C. Faizlərin ödənilməsi**

86. Məhkəmə ödənilməyən məbləğə görə faiz dərəcəsinin Avropa Mərkəzi Bankının faiz dərəcəsinə uyğun olaraq hesablanmasını və bura üç faiz əlavə edilməsini münasib hesab edir.

**YUXARIDAKILARI NƏZƏRƏ ALARAQ,**
**MƏHKƏMƏ YEKDİLLİKLƏ**

1. Konvensiyanın 3-cü və 10-cu maddələri əsasında təqdim edilmiş şikayətləri mümkün, ərizənin digər hissələrini mümkünsüz *elan edir*;

2. Polis tərəfindən pis rəftar edilməsi ilə bağlı Konvensiyanın 3-cü maddəsinin pozulduğunu *qət edir*;

3. Ərizəçinin pis rəftara dair iddiaları üzrə səmərəli istintaqın həyata keçirilmədiyi ilə bağlı Konvensiyanın 3-cü maddəsinin pozulduğunu *qət edir*;

4. Konvensiyanın 10-cu maddəsinin pozulduğunu qət *edir*;

5. *Qərara alır ki,*

(a)Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq Cavabdeh dövlət qərarın qüvvəyə minməsindən sonra üç ay ərzində aşağıdakı məbləğlərdə vəsaiti ödəmənin həyata keçirilməsi zamanı mövcud olan məzənnəyə uyğun olaraq Azərbaycan manatı ilə ödəməlidir:

(i)məbləğdən tutulacaq vergi də əlavə olunmaqla mənəvi ziyana görə 10000 (on min) avro;
(ii)ərizəçidən tutulacaq vergi də daxil olmaqla məhkəmə xərclərinə görə 3000 (üç min) avro;

(b) yuxarıda qeyd edilən üç ayın keçməsindən sonra ödəmənin həyata keçirilməsinə qədər gecikdirilən müddət üçün yuxarıda göstərilən məbləğdən Avropa Mərkəzi Bankının faiz dərəcəsinə uyğun olaraq faizlər ödənilməli və bura üç faiz də əlavə edilməlidir;

6. Ərizəçinin ədalətli kompensasiya tələbinin digər hissələrdə rədd edilməsini *qət edir*.

Qərar Məhkəmənin Prosedur Qaydalarının 77-ci Qaydasının 2 və 3-cü bəndlərinə uyğun olaraq 2012-ci il 2 oktyabr tarixində ingilis dilində və yazılı şəkildə tərtib edilmişdir.

| | |
|---|---|
| Soren Nilsen<br>Katib | Nina Vajiç<br>Sədr |